*G.Əqiq. Qacarlar sülaləsi dövründə poeziya və bazgəşt cərəyanı*
*// Əlyazmalar yanmır, 2019, № 2 (9), s.97-105.*

UOT: 821.222

**Gülnar Əqiq**
*AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi,*
*Bakı ş, İstiqlaliyyət küç. 53*
*e-mail: gulnarjafarzade2002@gmail.com*

# QACARLAR SÜLALƏSİ DÖVRÜNDƏ POEZİYA VƏ BAZGƏŞT CƏRƏYANI

*Farsdilli poeziya XIX yüzillikdə öz inkişaf yolunun ən ziddiyyətli dövrlərindən birini arxada qoymuşdur. Bu dövrün ən mühüm tarixi hadisəsi Qacar xanədanının siyasi hakimiyyətə gəlməsi olmuşdur.*

*Qacarlar sülaləsinin hökmdarları 137 ilədək sürən hakimiyyətləri boyunca təkcə siyasi deyil, həm də ədəbi fəaliyyyətləri ilə fərqlənmiş, XIX əsrdə ədəbiyyatın yeni istiqamətdə inkişaf etməsində mühüm rol oynamışlar. Xüsusilə, Qacar soyundan olan və bir-birinin ardınca taxta çıxan iki qüdrətli padşahın- Fətəli şah (1797-1834) və Nasirəddin şahın (1848-1896) özlərinin də yüksək təb və incə zövq sahibləri olması həm nəzm, həm də nəsr sahəsində gözəçarpan dirçəlişin baş verməsinə səbəb olmuşdur.*

*Ikinci Qacar hökmdarı Fətəli şahın hakimiyyət illərində (1797-1834) yaranmış qaynar ədəbi mühit hələ Səfəvilər dövründən başlayıb yüz ildən artıq davam edən tənəzzül prosesinə son qoymuş və "hind üslubu" tərəfdarlarını tədricən söz meydanından uzaqlaşdırmışdı. Qacar şahlarının qayğı və dəstəyi ilə əhatə olunan bu dövrün şairləri öz yaradıcılıqlarında daha çox mədhiyyə şeirlərinə, təqlid və təzminə üstünlük versələr də, onlar "bazgəşt" (ədəbi dönüş) cərəyanının əsas nümayəndələri olmuş, öz yaradıcılıqları ilə sonrakı nəsillərə örnək olmağa çalışmışlar. Fətəli şah Qacarın sarayında təşəkkül tapmış "Əncüməni-Xaqan" adlı ədəbi məclisə toplaşan yüzlərlə şair və ədib yeni üslubun əsas dayaqları olmuşlar. Məhz bu şair və ədiblər farsdilli poeziyada yüz ildən artıq davam edən yeni bir ədəbi cərəyanın əsasını qoymuşlar.*

***Açar sözlər:*** *Qacarlar, poeziya, ədəbi uslublar, bazgəşt cərəyanı, Fətəli şah Qacar.*

## Giriş

*XIX əsr həm İran, həm də Azərbaycanda böyük siyasi və ədəbi-mədəni hadisələrin baş verdiyi tarixin mürəkkəb bir dönəmidir. Bu tarixi dönəmdə türksoylu Qacarlar tayfası siyasi hakimiyyətə gəlmiş və təqribən 137 ilədək İran və Azərbaycan torpaqlarını idarə etmişlər. Cəsur və bacarıqlı sərkərdə olan Ağa Məhəmməd şah uzunmüddətli savaşlardan sonra 1794-cü ildə Qacarlar dövlətini qurmuş, ondan sonra iqtidara gələn digər Qacar hökmdarları siyasi hakimiyyətlərini qorumaqla yanaşı ölkənin mədəni həyatına da qayğı göstərməyə çalışmışlar.*

Fətəli şah Qacar (1772-1837) Ağa Məhəmməd şahdan sonra 1797-ci ildə səltənət taxtına əyləşən ikinci Qacar hökmdarı idi. O, 37 il davam edən hakimiyyəti boyunca dövləti idarə etməklə yanaşı poeziya sənətinə böyük həvəsi göstərmiş, "Xaqan" təxəllüsü ilə şeirlər yazmış, şair və ədiblərə diqqət və qayğısını əsirgəməmişdir.

Təkcə kökmdar kimi deyil, həm də saraylarında məşhur şairlərin yaşaması və fəalyyət göstərməsi ilə tarixdə adları əbədiləşən böyük türk sultanları Sultan Mahmud Qəznəvi və Sultan Səncər Səlcuqinin dəbdəbəli saray ədəbiyyatı ənənələrini Fətəli şah öz zamanında yenidən dirçəltməyə can atmışdır, saraya böyük ədiblər və şairlər ordusu toplamış, klassik ədəbi üslubların yenidən rəvac tapmasına çalışmışdır. Onun sarayda təşkil etdiyi "Əncüməni-Xaqan" şeir məclisi XIX yüzilliyin ən mühüm ədəbi hadisələrindən biri idi. Fətəli şahın poeziya sənətinə böyük qayğısı və dəstəyi nəticəsində şeir meydanına qədəm qoyan şairlərin sayı gündən-günə artırdı. Bu şair və ədiblər də Qacar şahının yolu ilə gedərək poeziyanın zahirən yeni, məzmunca isə klassik ənənələr istiqamətində inkişafına təkan verirdilər. Bu dövrün poeziyası birdən-birə öz məcrasını dəyişən coşğun çaya bənzəyirdi. Məhz şairlərin yeni istiqamətə yön almaları ilə meydana çıxmış ədəbi proses sonralar tədqiqatçılar tərəfindən farsdilli poeziyanın yeni bir inkişaf mərhələsi olan "**bazgəşt**" (qayıdış, dönüş) ədəbi cərəyanı adlandırıldı. Bu cərəyanın əsas simaları Fətəli şah və onun ətrafındakı saray şairləri idilər. Onlar böyük canfəşanlıqla klassik şairlərin yaradıcılığına müraciət edir, onların ədəbi ənənələrini davam etdirirdilər. Bu şairlərin əksəriyyəti qacarlar dövrünün adı tarixdə qalan tanınmış şəxsiyyətləri idilər. Səba Kaşani, Nişat İsfəhani, Səhab İsfəhani, Məcmər İsfəhani, Vüsal Şirazi, Qaani Şirazi, Füruği Bistami, Süruş İsfəhani, Yəğma Cəndəqi və Əbdürrəzzaq bəy Dünbüli, Fazil xan Gərrusi, Qaimməqam Fərahani, Əmir Kəbir, Əliqulu Mirzə Etimadüs-səltənə, Rzaqulu xan Hidayət kimi onlarla, hətta yüzlərlə şair, ədib, ictimai-siyasi xadim məhz bu ədəbi mühitin yetirmələri idilər. Onların qələmə aldıqları əsərlər xalqımızın da tarixi keçmişinin, ədəbi-mədəni irsinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Tarixin müxtəlif dönəmlərində baş verən hadisələrin bilavasitə təsiri nəticəsində meydana gəlmiş ictimai, siyasi, iqtisadi və sosial amillər dövrün ədəbi mühitinin formalaşmasında əsas rol oynayır. Şah İsmayıl Xətai tərəfindən 1501-ci ildə əsası qoyulan Səfəvilər dövlətinin yaranması ilə həm İran, həm də Azərbaycanda cəmiyyətdə baş verən köklü ictimai-siyasi dəyişikliklər və şiəliyin rəsmi məzhəb stasusu qazanması mədəni-ədəbi həyata da öz təsirini göstərmişdi. Səfəvilər sülaləsinin süqutundan (1732) Qacarlaradək (1795) olan yarım əsrdən çox sürən dövrün siyasi mənzərəsinə nəzər saldıqda İran ərazisində yaşayan xalqlar üçün mürəkkəb və səbatsız bir tarixi şəraitin şahidi oluruq. Qüdrətli Səfəvi xanədanının süqutundan dərhal sonra onların idarəçiliyi altında olan ərazilərdə yaranmış müstəqil və yarımmüstəqil xanlıqlar siyasi hakimiyyət uğrunda mücadiləyə başladılar. On ildən artıq davam edən üzücü Rusiya-İran müharibələri, Azərbaycan xalqının taleyində mühüm siyasi hadisə kimi tarixə həkk olunan müdhiş Gülüstan və Türkmənçay müqavilələri, Qafqazın Rusiya imperiyasına birləşdirilməsi kimi siyasi olaylar bu tarixi şəraiti daha da ziddiyyətli edərək mürəkkəbləşdirmişdir.

"Ədəbiyyat tarixin güzgüsüdür" meyarı ilə yanaşsaq, belə bir mürəkkəb tarixi şəraitdə ədəbi mühitdə yaşanan durğunluq, ətalət təəccüb oyatmamalıdır. Ölkədə hökm sürən ictimai-siyasi xaos ədəbiyyata da sirayət etmişdi. İran ədəbiyyatşünaslığında tədqiqatçılar təqribən bir əsrdən artıq müddəti əhatə edən bu dövrü əsasən "inhitat", "tənəzzül", "fitrət" və "rükud" dövrü adlandıraraq, klassik fars ədəbiyyatının təqribən on beşinci yüzilliyədək olan "qızıl" dövrü ilə müqayisədə cansız və sönük hesab edirlər. Onlar Rudəki Səmərqəndi ilə başlanan farsdilli poeziyanın inkişaf yolunda Əbdürrəhman Camini son böyük şair sayaraq, sonrakı dövrlərdə adı tarixdə əbədi qalacaq bir kəsin olmadığını qeyd edirlər. [1, 18]

Səfəvilər dövrünün poeziyasına xas olan əsas cəhət dini-məzhəbi mövzularda yazılmış şeirlərə üstünlük verilməsidir. Öz siyasi və dini görüşlərində Həzrət Əli başda olmaqla, on iki şiə imamını meyar seçən şəfəvi şahları saray çərçivəsində inkişaf edən ədəbiyyatda dini

mövzuların təbliğinə böyük əhəmiyyət verirdilər. Tədqiqatçılar bu fikirdədirlər ki, "Səfəvilərin öz dövlətlərinin əsasını möhkəmləndirmək üçün mədhiyyəçi şairlərə ehtiyacları yox idi." [2, 254] Bu səbəbdən artıq şairlər hökmdarları və onların ailə üzvlərini deyil, məhz əhli-beyti, Həzrət Əli, İmam Hüseyn və Kərbəla şəhidlərini vəsf etməklə səfəvi sultanlarının rəğbətini qazanmağa can atırdılar. Tarixçi İskəndər bəy Münşi "Tarixi-Aləmarayi-Abbasi" əsərində bu dövrün ən məşhur ədəbi simalarından olan Möhtəşəm Kaşani haqqında hətta belə bir əhvalatı nəql edir ki, bir gün o, Şah Təhmasibə həsr etdiyi qəsidəni oxuyarkən şahdan ənam əvəzində belə bir cavab almışdır: "Şairlər dillərini mənim üçün şeir yazmağa bulaşdırmaqdansa, vilayət şahı Həzrət Əli (ə.) və məsumların şəninə qəsidələr yazsınlar. Buna görə əvvəlcə o müqəddəslərin pak ruhundan, sonra isə bizdən bəxşiş istəsinlər." [3, 133]

Səfəvilər xanədanının apardığı siyasətin nəticəsi olaraq təqribən üç əsrlik bir dövrü əhatə edən zaman kəsiyində ədəbiyyat həm nəzm, həm də nəsr sahəsində dini səpkidə inkişaf edirdi və bu da dövrün ədəbi mühitinin araşdırıcıları tərəfindən birmənalı qarşılanmır. Bir çox tədqiqatçılar bu dövrü poeziyanın zəngin bədii çalarlardan məhrum, bəsit dini mövzulara tapınan məhdud qəliblərdə inkişaf etdiyini qeyd edirlər. Onların fikrincə bu dövrün şairləri məzhəbi mövzular çərçivəsində yazmaqla müəyyən edilmiş hüdudlardan kənara çıxa bilməmiş,bir çox hallarda isə təkrarçılığa yol verərək söz meydanında cövlan edə bilməmişlər. Bu barədə tədqiqatçıların fikirləri demək olar ki, üst-üstə düşür və kimsə bu dövrün şeir asimanında fars şeirinin parlaq ulduzları olan Xaqani,Nizami, Əttar, Rumi, Sədi, Hafiz, Cami kimi söz ustadlarını görə bilməz. Lakin qeyd etmək lazımdır ki, dini-məzhəbi mövzuların ədəbiyyata yol tapması ilə həm dini ayin və hədislərin ictimai-siyasi məsələlərdə əks olunmasına aid iri həcmli şərhlər, təfsir və risalələr yarandı və həm də cəmiyyətdə mənəvi dəyərlərin formalaşıb möhkəmlənməsinə xidmət edən böyük bir poeziya toplusu meydana gəldi. Klassik poeziyanın inkişaf tendensiyasına nəzər salsaq səfəvilərdən bir neçə əsr öncə əsasən insana xas hiss və duyğuların tərənnümünə həsr olunan lirik janrın, xüsusilə qəzəlin artıq sadə bir eşq məfhumu deyil, ilahi eşqi və vəhdəti-vücud təlimini ehtiva edən təsəvvüf ədəbiyyatının yarandığının şahidi oluruq. Şərq poeziyasının özünəməxsusuluğu məhz lirik şeirin fəlsəfi aspektdə inkişaf edərək yeni bir məzmun kəsb etməsindədir. Səfəvilər dövründə isə bu tendensiya öz yerini tamamlilə dini mövzuları təcəssüm etdirən qəsidə, rübai, müxəmməs və məsnəvi kimi şeir qəliblərində özünü göstərir. Bu dövrdə qəzəl sənətində bir kasadlıq gözə çarpır, əvəzində Möhtəşəm Kaşani kimi qüdrətli mərsiyə şairi meydana çıxır, farsdilli poeziya türkdilli poeziya ilə müqayisədə daha zəif şəkildə təzahür edir, həm saraylarda, həm də saray mühitindən kənarda türk dilində yazılmış dəyərli ədəbi nümunələr nəzərə çarpır. Səfəvilər sülaləsinin türkəsilli olması və Şah İsmayıl Xətainin dövründə türk dilinə verilən dəyər poeziyaya da öz təsirini göstərir, Həbibi, Kişvəri kimi ana dilində yazan şairlərlə yanaşı doğma vətəninin hüdudlarından çox-çox uzaqlarda bütün türk dünyasının fəxr etdiyi dahi şairimiz Məhəmməd Füzuli söz meydanına qədəm basır. XVI yüzilliyin parlaq ədəbi siması olan Füzuli həm lirik qəzəlləri ilə qəlbləri fəth etmiş, həm də dini-məzhəbi mövzularda mükəmməl poeziya nümunələri yaratmışdır.

Bir şox tədqiqatçıların söylədiyi kimi, türk nəslindən olan səfəvi şahları dərviş –təriqət yolçuları kimi tərbiyə olunduğundan onların hakimiyyəti illərində fars şeiri tənəzzülə uğradı və poeziyada "hind uslubu" adlanan yeni uslub meydana gəldi. Üç yüz ilədək davam edən hind üslubu İrandan və ətraf ölkələrdən Hindistana üz tutan farsdilli şairlərin yaradıcılığını əhatə edən özünəməxsus mürəkkəb dil, ifadə və ibarələrə malik bir üslub idi. Səvəvi sultanları tərəfindən dəstəklənməyən şairlər Hindistan saraylarında hörmət və rəğbətlə qarşılanır, hökmdarların qayğısı ilə əhatə olunurdular. Bu da poeziyanın geniş rəvac tapmasına şərait yaratsa da, fars dili üçün yad və əlverişsiz mühit dilin öz adi sərbəstliyini itirməsinə və gerçəklikdən uzaqlaşmasına səbəb olmuşdu. Bunun nəticəsində ortalığa çıxan mücərrəd şeir numunələri poeziyanı tənəzzülə uğratdı.

İranlı ədəbiyyatşünas İqbal Aştiyani bu dövrün ədəbiyyatı haqqında yazır: "Səfəvi sultanlarının dövründə fars şeiri tamamilə təravətdən düşdü, öz əhəmiyyətini itirdi və qədim şeir ustadlarının son dərəcə fəsahətli və bəlağətli kəlamlarından ibarət poeziya forma və üslubları tərzindən qəribə bir şəklə doğru dəyişildi. Söz ustalarının ən gözəl libaslarda canlandırdıqları hər kəs tərəfindən məqbul sayılan dolğun və kamil bir şəklə düşmüş qəlbəyatan məzmunlar və zəngin mənalar tərk olunub unuduldu və onlara nəzirələr belə yaratmaq qabiliyyətinə malik olmayanlar hətta özlərindən əvvəlki sənətkarların yaradıcılığını öyrənməkdən imtina etdilər və "səbki-hindi" kimi məşhur olan xəyal və röyaların ətrafında dolaşdılar." [ 4, 9]

Səfəvilər dövrünün ədəbiyyatı, xüsusilə poeziyası haqqında fikirlər ziddiyyətlidir. Görkəmli rus şərqşünası İ.S.Braginski isə orta əsrləri ədəbi dövrlərə bölərkən "ədəbi yüksəliş mərhələsi" saydığı səfəvilər dövrünü belə səciyyələndirir: "Ədəbiyyat yenidən çiçəklənir, bədii ədəbiyyatda zərifliyə meyl yaranır. Xüsusilə, geniş xalq kütlələri arasında ədəbiyyata maraq artır. Şairlərin əksəriyyəti sənətkarların arasından çıxır. Sənətkarlığın və ticarət əlaqələrinin inkişafı ilə əlaqədar yeni mövzular yaranır. "Yeni üslub" meydana gəlir. Danışıq sözləri və ifadələri geniş şəkildə ədəbi dilə, xüsusilə poeziyaya daxil olur. Dil daha da sadələşir, anlaşıqlı olur. Hindistanda fars ədəbiyyatı çiçəklənir. Tədricən türk dilində əsərlər meydana gəlir." [5, 15]

Beləliklə, səfəvilər dövrünün ədəbiyyatını səciyyələndirən əsas cəhət onun bəzi inkişaf meyllərinin gözə çarpmasına baxmayaraq ümumilikdə, "tənəzzül ədəbiyyatı" adlandırılmasıdır. Bizim fikrimizcə isə farsdilli ədəbiyyatda bu tənəzzülün köklərini bir neçə əsr öncədə axtarmaq lazımdır. Artıq monqolların və teymurilərin yürüşləri ilə ədəbi mühitdə sönüklüyə və tənəzzülə döğru gedən ilk cığırlar açılmağa başladı. Ədəbiyyatda çökmə prosesi səfəvilərin dövründə də davam etdi və onların süqutu ilə ədəbi-mədəni mühitdə xaos ən yüksək həddə çatdı. Cəmiyyətdə aparıcı ədəbi simaların olmaması təbii ki, poeziyada da pərakəndəliyin və məzmunsuzluğun baş alıb getməsinə səbəb olmuşdur.

Erkən orta əsrlərdə Azərbaycan da daxil olmaqla islamı qəbul etmiş Yaxın və Orta Şərq ölkələrinin işlək ədəbi dili fars-dəri, ədəbi üslubu isə Xorasan üslubu olmuşdur. Səbki-Xorasani kimi tanınan bu üslubun əsas məziyyətləri sadə, diləyatan, mürəkkəb istiarə və təşbihlərdən və mücərrəd ibarələrdən uzaq, aydın və anlaşılan bir dildə olmasıdır. Bu üslubun Rudəki, Firdovsi, Ünsüri, Mənuçehri, Xaqani və Nizami kimi təmsilçiləri olub.

Böyük Səlcuq imperiyasının (1038-1157) yaranması ilə elm və mədəniyyət sahəsində də tərəqqi prosesi gücləndi. Səlcuqlar dövründən başlayaraq XI yüzillikdə fars şeirində təsəvvüf motivləri yer aldı. Bu dini-fəlsəfi cərəyanının təsiri ilə poeziyada səbki-İraqi deyilən üslub təşəkkül tapdı. Bu ədəbi üsluba aid olan şeirlərdə ərəbcə söz və ifadələrə, xüsusilə dini-fəlsəfi səciyyə daşıyan hədis və Quran ayələrinə geniş yer verilirdi. Bu səbkin Əttar, Mövlana, Sənayi, Sədi, Hafiz, Cami kimi nümayəndələri olmuşdur.

Müasir dövrdə farsdilli poeziyaya ədəbi-tənqidi yanaşmanın təməli görkəmli İran şairi, publisiist və ədəbiyyatşünası Məhəmmədtağı Bahar Məlikəşşüəra (1886-1951) tərəfindən qoyulmuşdur. O, özünün "Səbkşenasi" ("Uslubiyyat") adlı üç cildlik elmi monoqrafiyasında fars şeirini və nəsrini dövrlərə ayıraraq üslub və yaradıcılıq meyarlarına görə təhlil etmişdir. M. Bahar poeziyanı uslub xüsusiyyətlərinə görə aşağıdakı qruplara bölür:

1. **Xorasan üslubu -** Samanilər (819-1005) dövründən Elxanilərədək (XIII əsr) davam edir.
2. **İraq üslubu**- Səfəvilərin dövründə (1501-1732) əsas işlək üslub idi.
3. **Hind üslubu** - Səfəvilərin son dövrlərindən başlamış və Kərim xan Zənd hakimiyyətə gələnə qədər (1750) davam etmişdi.
4. **Bazgəşt** (qayıdış) **üslubu.** Bu üslub zəndiyyə tayfasının son dövrlərindən (1770-ci illər) başlamış və Qacarlar dövrünün ortalarına (1850-ci illər) qədər davam etmişdir.

Beləliklə, farsdilli ədəbiyyat tarixində ilk dəfə olaraq M. Bahar həm nəzm, həm də nəsri inkişaf mərhələlərinə ayırmışdır. Məhz o, "**bazgəşti-ədəbi**" (ədəbi qayıdış) istilahını ilk dəfə ədəbiyyata daxil etmiş və fars poeziyasının inkişaf tarixinin yeni bir mərhələsindən bəhs etmişdir. O, tarixi baxımdan "bazgəşt" cərəyanını əsasən Kərim xan Zəndin hakimiyyət illəri və Qacarlar dövrü ilə əlaqələndirir. Qacarlar dövründə daha böyük rövnəqlə davam edən "bazgəşti-ədəbi" sadə bir üslub deyil, fardilli poeziyada bir ədəbi cərəyan şəklində təşəkkül tapdı. [6, 316]

Bazgəşt cərəyanının ilk tərəfdarlarından olan Lüfəli bəy Azər bu dövrün poeziyası haqqında özünün məşhur "Atəşkədeyi-Azər" təzkirəsində yazırdı: "İllərdir ki, zəmanədə baş verən inqilabların gətirdiyi qəm yükü ilə şairlik sənəti meydanı tərk edib. İş o yerə çatıb ki, kiminsə şeir oxumağa belə halı yoxdur, nəinki deməyə." [7, 455]

İlk növbədə qeyd etmək lazımdır ki, bu dövr fars ədəbiyyatının inkişaf tarixini dövrlərə bölən tədqiqiatçılar tərəfindən "bazgəşt" (qayıdış) dövrü adlandırılır ki, biz onun ilk rüşeymlərinin hələ Səfəvilər dövrünün sonlarında meydana gəldiyinə işarə etdik. Səfəvilər dövrünün poeziyasına xas olan bir sıra müsbət cəhətlər -tərif və mədhiyyə ədədbiyyatının dəbdən düşməsi və ədəbiyyatın, xüsusilə poeziyanın saray çərçivəsindən kənara çıxaraq sadə xalq içərisində yayılması (qəhvəxanalar şəklində meydana çıxan ilk şeir məclislərinin yaranması) ədəbiyyatın yeni mərhələyə qədəm qoymasına və "bazgəşt" cərəyanı adlanan yeni üslubun meydana gəlməsinə səbəb olmuşdur.

Fars ədəbiyyatının araşdırıcıları "bazgəşt" cərəyanını Qacarlarla, xüsusilə Fətəli şahın hakimiyyətə gəldiyi dövrlə əlaqələndirirlər. Bazgəşt cərəyanı adlandırılan bu oyanışın ilk qığılcımları hələ Kərimxan Zəndin (1750-1779) dövründə İsfəhan ədəbi mühitində parlamışdı. M. Bahar "bazgəşt" cərəyanını konkret olaraq Nadir şah Əfşarın olümündən (1747) Nasirəddin şah Qacarın ölümünə (1896) qədər olan tarixi dövrə aid edir. Bu ədəbi oyanış hərəkətaının meydana gəlməsi coğrafi baxımdan İsfəhan şəhəri ilə bağlıdır. "Bazgəşti-ədəbi" cərəyanının həm meydana gəlməsində, həm də sonrakı inkişafında İsfahan şəhərinin rolu danılmazdır. Bu ədəbi prosesi ərsəyə gətirən şair və ədiblər "hind üslubu"nda yazılmış bəsit və bayağı əsərlərə qarşı çıxaraq ədəbiyyatda dönüş mərhələsi yaratmağa səy göstərdilər. Bu hərəkatın ilk nümayəndələri Mir Seyid Əli Müştaq İsfahani və ardıcılları olan Seyid Məhəmməd Şölə İsfahani, Lütfəli bəy Azər Bigdeli, Təbib İsfahani, Səbahi Bidqoli, Hatif İsfahani, Mirzə Nəsir İsfahani, Şəhab Turşizi, Aşiq İsfahani, Rəfiq İsfahani və b. idilər. Bu söz xiridarları bir araya gələrək Müştaq İsfahaninin başçılığı altında "Əncüməni-Müştaq" ədəbi məclisini yaratdılar və hind üslubunun tərəfdarlarına qarşı açıq mübarizəyə girişdilər. Lakin o dövrdə İsfahanda ictimai-siyasi sabitliyin olmaması və Kərim xan Zəndin iqamətgahının Şirazda yerləşməsi səbəbindən kənardan heç bir maddi və mənəvi dəstək görməyən "Əncüməni-Müştaq" məclisi uzun müddət fəaliyyət göstərə bilmədi və tezliklə dağılmağa məruz qaldı. M. Baharın fikrincə, bu şairlər çiyinlərində yüz ildən artıq sürən "inhitat" dövrünü devirmək kimi ağır məsuliyyət daşıyırdılar və ən pisi isə bu dövrdə onlara öz lütf və mərhəməti ilə dəstək olan şahlar və sultanların olmaması idi. Onların ədəbi fəaliyyəti gözəçarpacaq qədər səmərəli olmasa da, bu şairlər və ədiblər məclisi qacarlar dövründə baş verəcək yeni ədəbi renesansın ilk qığılcımlarını alışdırmağı bacardılar. Ədəbiyyatdakı uzunmüddətli durğunluqdan sonra ilk dəfə məhz bu əncümənin şairləri özlərindən əvvəlki sənətkarların yaradıcılığına müraciət etdilər və poeziyada klassik fars şeirinin Xorasan və İraq üslublarına xas olan ənənələrini yenidən canlandırdılar.

Bu dövrün Müştaq İsfahani və onun davamçıları olan digər şairlərinin qarşısında konkret tərif və təsvir obyekti olmadan, hədəfsiz yazmaq və dili hind üslubuna xas olan yad ünsürlərdən, qarma-qarışıq və mübhəm ifadələrdən təmizləmək kimi çətin vəzifə dururdu. Dövrün ictimai-siyasi şəraitinin necə mürəkkəb və ziddiyyətli olduğunu da təsəvvür etsək, bu çətinlik ikiqat artmış olurdu. "Belə bir şəraitdə, öz müştərək əqidə və amalları ilə ilhama qol-

qanad verən şairlər və onların yaratdıqları yeni ədəbi məktəblər bais oldu ki, təkcə 18-19-cu yüzilliklərdə iki yüzdən artıq təzkirə kitabı qələmə alınmışdır." [8, 122]

Bu dövrün ən önəmli ədəbi hadisəsi həm nəzm, həm də nəsr sahəsində sadəliyə əsaslanan yeni uslubun yaranması idi. "Bazgəşt dövründə şairlərin xüsusi bir üslubu yox idi, onların əsas üslubu köhnə üslubların (Xorasan, İraq, Azərbaycan) təqlidi idi." [9, 48]

Görkəmli ədəbi tənqidçi Ə. Zərrinkub da bu dövrün poeziyasında yenilik axtarmağı bihudə sayaraq deyir: "...yenidən Ənvəri, Fərruxi və Xaqaninin səsi yeni əsrin üfüqlərində yayıldı." [10, 343]

"Əncümən-Müştaq" məclisinin dağılmasından çox keçməmiş İsfəhan şəhərinin kələntəri (mühafizə rəisi) Mötəmədüddövlə Nişat İsfahani Müştağın təkidi ilə yeni "Əncümən-Nişat" adlı ədəbi məclis təşkil etdi və İsfahan şairlərini bir araya topladı. Mir Seyidəli Müştaq başda olmaqla onlarla əksəriyyəti İsfahandan olan şairləri bu məclisin ətrafında birləşdirdi.

"Əncüməni-Nişat" ədəbi məclisi öz fəaliyyətini 1803- cü ildə Mötəmədüddövlə Nişatın Tehrana getməsi ilə dayandırdı. Onun arxasınca şair və ədiblər də Tehrana qacarlar sarayına üz tutdular.

Səfəvilərin süqutundan sonra əfşarlar, onların qısa sürən hakimiyyətindən sonra isə qacarlar sülaləsi siyasi səhnəyə atıldılar və 140 ilədək İran və Azərbaycanın tarixi torpaqlarını idarə etdilər. Təxminən bir əsr yarımlıq bu dövrün ədəbi mühiti son dərəcə ziddiyyətli tarixi şəraitin və mürəkkəb ictimai-siyasi dövrün təzahürü idi.

X əsrdən etibarən Yaxın Şərqdə ərəb xilafətinin siyasi mövqeyinin zəifləməsi ilə Orta Asiya və İranda yaranmış Samanilər və Qəznəvilər dövləti qədim Sasani mədəniyyətini bərpa etmək üçün səy göstərir və ədəbiyyatın saray çərçivəsində tərəqqisinə diqqət və qayğı ilə yanaşırdılar. Hökmdarlar dövrün tanınmış söz sahiblərini öz saraylarına dəvət edir və farsdilli poeziyanın dəbdəbəli saray mühitində inkişafı üçün lazımi şəraiti yaradırdılar.

Erkən orta əsrlərdə fars dilinin bütün Şərqdə ədəbi dil kimi formalaşması Azərbaycanda da bu dildə yazıb yaradan çoxlu sayda şairlərin söz meydanına qədəm basmasına səbəb olmuşdur. Klassik Azərbaycan ədəbiyyatı həm forma, həm də məzmun baxımından uzun əsrlər boyunca ərəb və farsdilli Şərq ədəbiyyatı ilə bağlı olmuş, hətta sonrakı dövrlərdə dahi söz ustadlarımız ana dili ilə yanaşı bu dillərdə də dəyərli ədəbi nümunələr yaratmışlar. XIX yüzillik xalqımızın tarixində həm siyasi-ictimai, həm də ədəbi-mədəni təbəddülatlar baxımından türk tayfalarının öz siyasi çevikliyi ilə fərqləndiyi bir dövrdür. Öz ulu babaları səfəvilərin, sonra isə əfşarların layiqli davamçısı olan qacarların qanlı-qadalı hərb meydanlarından siyasi hakimiyyətə yetişməsi ilə ədəbiyyat da yeni bir inkişaf mərhələsinə qədəm qoydu. Etnik mənşəcə türksoylu olan və yüz ildən artıq bir müddətdə bütün İran və Azərbaycanı idarə edən qacarlar sülaləsinin ikinci hökmdarı Fətəli şah Qacar şeir və şairlərə diqqət və sayğısı ilə böyük şöhrət qazanmışdı. Tarixə nəzər salsaq bir çox hökmdarlar şeir yazmaq istedadına malik olmuşlar. Fətəli şah Qacar isə o hökmdarlardan idi ki, ədəbi fəaliyyəti siyasi fəaliyyətini kölgədə qoymuşdur. Tədqiqatçılar İngiltərə, Fransa və Rusiya kimi imperialist dövlətlərinin İranın daxili işlərinə müdaxiləsini, ölkədə baş verən iqtisadi böhran və ən başlıcası İrəvan, Naxçıvan, Qarabağ, Gəncə, Şəki, Lənkəran,Dərbənd kimi Azərbaycan xanlıqlarının və Şərqi Gürcüstan vılayətlərinin Rusiyaya birləşdirilməsini məhz onun uğursuz siyasi fəaliyyətinin nəticəsi hesab edirlər. Bu dövrün ictimai-siyasi mənzərəsi, xüsusilə Fətəli şahın siyasi fəaliyyəti iranlı alimlər Səid Nəfisi, Əhməd Kəsrəvi və başqaları tərəfindən müxtəlif cür şərh edilir. İran tarixçiləri Fətəli şahı daha çox Rusiya imperiyası qarşısında İran dövlətinin ərazi bütövlüyünü qoruya bilməyən, İngiltərə və Fransa kimi imperialist dövlətlərinin İranın siyasi işlərinə müdaxilə etməsinin qarşısını almaq iqtidarında olmayan zəif və iradəsiz padşah kimi təqdim edirlər.

Bəşər tarixində XIX yüzilliyin ikinci yarısı elm və mədəniyyət sahəsində tərəqqi dövrü sayılır. Bu dövrdə xüsusilə, Qərbi Avropada və Rusiyada sənaye sahəsində əldə olunan nailliyyətlər insan sivilizasiyasının tarixində müüm ixtiralar hesab edilir. Bütün bu olaylar

hələ əsrlər öncə mədəniyyətin intibah dövrünü yaşamış Şərqə də öz təsirini göstərirdi. "Məhz qacarlar dövləti İranın Avropa ilə ilk əlaqələrinin yaranmasında böyük rol oynamışdı." [11, 79]

İngiltərə, Fransa və Rusiya kimi qüdrətli imperialist dövlətləri ilə əlaəqələrin yaranması İranın mədəni həyatına da təsirsiz qalmırdı. XIX yüzillikdə İranda baş verən ilk mətbəənin yaradılması, müasir çap avadanlıqları, Avropa tipli ilk mədrəsə və Darülfünunun açlması, tramvay xətti, teleqraf, sinema kimi yeniliklər məhz bu əlaqələrin nəticəsi idi. Bu dövrdə ilk dəfə olaraq iranlı gənclər Avropaya təhsil almağa göndərildilər.

Cəmiyyətdə baş verən yeniliklər ədəbi mühitə də təsir edir. Ziyalı burjuaziya təbəqəsinin formalaşması bazgəşt cərəyanının sonlarından başlayan yenilikçilik (təcəddüd) hərəkatının meydana gəlməsinə təkan verdi.

Qacarlar dövrü ədəbiyyatının araşdırıcılarından olan Mehdi Həmidi bu dövrün ədəbiyyatını ağaca bənzədir və yazır ki, "bu cavan pöhrəni Mir Seyid Əli Müştaq və ətrafındakılar torpağa əkmiş, Fətəli şah Qacarın dövründə boy atıb çiçəkləmiş, Nasirəddin Şahın dövründə isə meyvələrini ətrafa yaymışdır." [12,19] Bu maraqlı bənzətmə həqiqətən də fars ədəbiyyatının XVIII yüzilliyin ikinci yarısından başlayıb XIX yüzilliyin sonunadək davam edən inkişaf yolunu əks etdirir və bazgəşt cərəyanının Qacar hökmdarları tərəfindən dəstəkləndiyini təsdiq edir.

Bu dövrün ədəbiyyatının inkişaf mərhələlərini poeziyanın əsas xüsusiyyətlərinə görə aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Hind üslubunun meydana gəlməsi və farsdilli poeziyanın İran hüdudlarından kənarda rəvac tapması ilə əlaqədar poeziyada yaranmış tənəzzül dövrünün sona çatması.
2. Şeirdə klassik ədəbi ənənələrə üstünlük verilməsi.
3. İşlənmiş qədim əfsanə və rəvayətlərin nəzmə çəkilməsi, təzmin və nəzirəçilik sənətinin geniş yayılması.
4. Qəzəl janrının qəsidəyə nisbətən daha çox populyar olması.
5. Dini-təriqət mövzularının daha geniş şəkildə işlənməsi.
6. Poeziya sənətinin daha çox saray çərçivəsində inkişafı və mədhiyyəçiliyin yayılması.

Fətəli şah Qacarın hakimiyyətə gəlməsindən bir neçə onillik öncəyə nəzər salsaq, farsdilli poeziyada hind üslubu adlandırılan qarmaqarışıq bir ədəbi mühitin və ondan sonra yaşanan ədəbi durğunluq dövrünün şahidi oluruq. Belə bir dövrdə klassik poeziya ənənələrindən bəhrələnərək sadə və rəvan şeirləri ilə poeziyanı yenidən canlandıran qacar şahı XIX yüzillikdə yeni bir ədəbi mərhələnin ilk rüşeymlərini ərsəyə gətirmiş və fars şeirinə təzə ruh bəxş etmişdir. Məhz Fətəli Şah Qacarın sarayında söz bazarının rəvac tapması Səbki-Xorasani və Səbki-İraqi kimi klassik şeir üslublarının yenidən dirçəlməsi və Firdovsi, Fərruxi, Sədi, Hafiz, Xaqani və Nizami kimi ustadların şeir tərzinin hind üslubunun yerini alması ilə nəticələndi. "Qacarlar dövründə elə bir bünövrə qoyuldu ki, Fətəli xan Səba, Morzə Əbdül-vahab Mötəmədədüddövlə Nişat İsfəhani, Mecmər İsfəhani, Vüsal Şirazi, Mirzə Əbdülbaqi Təbib İsfəhani kimi söz ustaları ö dövrün cavan şair və yazarlarına örnək olaraq XIII (m. XIX) yüzilliyin birinci yarısını əvəlki dövrlərdən fərqli etməyə müvəffəq oldular." [13, 28] Adlarını çəkdiyimiz bu şairlərin hamısı Fətəli şah Qacarın müasirləri olmuş və öz yaradıcılıqları ilə o dövrün ədəbi mühitini rövnəqləndirmişlər.

Farsdilli ədəbiyyatın əsas dörd inkişaf mərhələsindən biri sayılan Bazgəşt cərəyanının təşəkkül tapması Qacar xanədanının siyasi iqtidara gəlməsi ilə bir dövrə təsadüf edir. Bu ədəbi cərəyanın meydana gəlməsində və sonrakı inkişafında Qacarlar sülaləsi mühüm rol oynamışdır.

Fars poeziyasında hind üslubunun ilk təzahür ünsürləri XIV yüzilliyin əvvəllərində teymurilər dövründə meydana çıxmış, əvvəlcə klassik şeirin səciyyəvi forma və xüsusiyyət-

lərinin özündə yaşatsa da, zaman keçdikcə bu üslubun mürəkkəb şeir texnikasından və mücərrədlik məfhumundan qaynaqlanan bədii nümunələri fars poeziyasını tənəzzülə doğru aparmışdır. Bu dövrün tədqiqatçıları Əbdürrəhman Camini fars poeziyasının son böyük şairi hesab edir, ondan sonra şeir aləmində yaddaqalan şəxsiyyətlərin yetişmədiyini söyləyirlər. Bunu daha çox şairlərin fars dilinin işlək olduğu ərazilərdən uzaq Hindistan saraylarına yollanmaları ilə izah edirlər. Hind üslubunun yayılmasından sonra fars şeirinin tədqiqatçılar tərəfindən "inhitat" və ya "rükud" adlandırılan durğunluq dövrü başlandı. Tarixi baxımdan bu dövr səfəvilərin hakimiyyətinin son illərindən zənd sülaləsinin hakimiyyətə gəlməsinə qədər davam etmişdir.

Səfəvilər sülaləsinin hakimiyyəti dövründə farsdilli poeziyada iki başlıca istiqamət meydana gəldi:

1. Fars dilinin işləndiyi hüdudlardan kənarda, xüsusilə Hindistanda rəvac tapan poeziya (Saib Təbrizi, Kəlim Kaşani, Qüdsi Məşhədi və b.)
2. Səfəvilərin siyasi hakimiyyətini leqallaşdırmağa xidmət edən dini poeziya (Möhtəşəm Kaşani, Feyz Kaşani və s.)

Hind üslubu farsdilli poeziyada uzun əsrlər boyunca İran, Hindistan, Əfqanıstan, Tacikistan, Azərbaycan və Türkiyə də daxil olmaqla geniş bir coğrafi məkanı əhatə edərək bu şəkildə öz inkişafını davam etdirmişdir.

Səfəvilərin süqutu, əvvəlcə Zənd, sonra Əfşar və nəhayət Qacar sülaləsinin siyasi hakimiyyətdə bir-birini əvəz etdiyi XVIII əsr farsdilli poeziyanın ən acınaqlı bir dövrüdür. Xanlıqların meydana gəldiyi, feodal münasibətlərinin dağılmağa doğru getdiyi bu dövrdə ədəbi mühitdə də bir xaos mövcud idi. Bu qarmaqarışıqlıq qacarların dövrünədək davam etmişdir.

**Nəticə**

*XVIII yüzilliyin sonlarında Qacarlar sülaləsinin hakimiyyətə gəlməsi ilə ədəbi mühitdə çoxdan davam edən durğunluq da sona yetdi. Qacar hökmdarları şeir və sənətə böyük maraq göstərərək saraylarında ədəbi məclislər təşkil etdilər. Özləri də istedadlı şairlər olan Fətəli şah və Nasirəddin şah kimi Qacar padşahları həm ədəbi fəaliyyətləri, həm də şair və yazarlara göstərdikləri qayğı və dəstək ilə ədəbiyyatın inkişafına xidmət etdilər.*

**Ədəbiyyat siyahısı:**


1. آرین پور، یحیی. از صبا تا نیما. جلد اول. تهران. انتشارات زوار. 1372
2. زرین کوب، عبد الحسین.سیری در شعر فارسی. تهران. انتشارات سخن. 1375
3. ترکمان، اسکندر بیگ منشی. تاریخ عالم آرای عباسی. به تصحیح ایرج افشار. ج اول. انتشارات امیر کبیر. 1382
4. دیوان هاتف اصفهانی. تصحیح وحید دستگردی . موسسه انتشارات نگاه. 1388
5. И. С. Брагинский. Из истории персидской и таджикской литератур. Москва, Наука, 1972.
6. بهار، محمد تقی ملک الشعرا. سبک شناسی. ج اول. انتشارات طوس. 1385
7. آذر بیگدلی، لطفعلی. آتشکده آذر. به تصحیح میر حاشم محدث. تهران. انتشارات امیر کبیر. 1378
8. خاتمی، احمد. پژوهشی در نظم و نثر دوران بازگشت ادبی. تهران. پایا. 1374
9. لنگرودی، شمس. مکتب بازگشت ادبی. تهران، نشر مرکز. 1375
10. زرین کوب، عبدالحسین. آشنایی با نقد ادبی. تهران. انتشارات امیر کبیر. 1372
11. نفیسی سعید. تاریخ اجتماعی و سیاسی ایران در دوره معاصر. جلد اول. تهران. انتشارات بنیاد. 1366
12. مهدی حمیدی شیرازی. شعر در عصر قاجار. تهران. انتشارات گنج کتاب. 1364
13. زین العابدین موتمن. تحول شعر فارسی.. تهران. انتشارات شرق. 1379 .

**Агиг Гюльнар**

**Поэзия и тенденции "базгешт" в период правления Каджаров**

В XIX веке персоязычная поэзия оставила позади один из самых противоречивых периодов своего развития . Важнейшим историческим событием этого периода был приход династии Каджаров на политическую арену.

На протяжении 137 лет царствования правители династии Каджаров отличались не только политической, но и литературной деятельностью и сыграли важную роль в развитии литературы XIX века в новом направлении. Особенно, два выдающихся правителя династии Каджаров один за другим вступившие во власть — Фатали шах ( 1797-1834) и Насреддин шах(1848-1896) своим поэтическим вдохновением и утончённым вкусом явились причиной возрождения поэзии и прозывления.

В годы правления второго правителя рода Каджаров Фатали шаха (1797-1834) был положен конец появившемуся ещё во времена Сефевидов и длившемуся более 100 лет процессу застоя и постепенно сторонники «индийского стиля» были отдалены от поэтической арены.

Несмотря на то, что поэты этого периода , окружённые заботой и поддержкой шахов династии Каджаров, в своём творчестве отдавали предпочтение восхвалению и подражанию, они явились основными представителями направления «базгешт» (литературное возрождение) и старались своим творчеством стать образцом для нового поколения. Сотни поэтов и литераторов меджлиса под названием «Анджумани Хаган», образовавшийся во дворце Фатали шаха Каджара, стали важной поддержкой нового стиля. Именно эти поэты и литераторы основали новый литературный жанр персоязычной поэзии , существовавший более 100 лет.

***Ключевые слова:*** *Каджары, поезия, литературные стили, движения базгешт, Фатали шах Каджар.*

**Aqiq Gulnar**

**Poetry and moovement "Bazgesht" during Kajar dynasty**

The Persian-language poetry had been left behind one of the most controversial epoch the way of its development in the 19th century. The most important historical event of this period was the political dominion of the Kajar dynasty.

During 137 years their authority the dynasty of the Kajar, had been distinguished not only by their political activity, also by their literary works that played an important role in the evolution of the nineteenth century literature. Specifically, the representatives of Kajar throne - Fatali Shah (1797-1834) and Nasiraddin Shah (1848-1896) who were poet, caused by remarkable revival at the field of poetry and prose.

By forming the hot literary environment during the years of reigning the second Kajar ruler Fatali Shah (1797-1834) ended the crisis process extended through the Safavid period and removed the supporters of "Indian style" from literary challenge. However the poets involved in the care and support of the Kajar kings of this epoch are prefered praise and panegyric, also imitataion in their poems, they became familiar with the basic features of the "bazgesht" (literary development) trend. Hundreds of poets and writers gathering around the literary assembly called "Anjumane-Khagan were basic supports of new literary trend. Namely these poets and writers established the foundation of a new literary movement that has lasted for hundreds of years in Persian-language poetry.

***Key words:*** *Kajars, poetry, bazgesht (the return) movement, Fatali shah Qajar.*

Redaksiyaya daxil olma tarixi: 09.08.2019
Çapa qəbul olunma tarixi: 14.09.2019

Filologiya üzrə elmləri doktoru
**Kamil Allahyarov** tərəfindən çapa tövsiyə olunmuşdur.